

Anar AMİN

## MƏCNUNDAN BABƏKƏCƏN

Leyli tənhalığı, Məcnun təkliyi
Ulu Füzulinin qəzəlindədi.
Hicran əvvəlində, vüsal sonunda
Ayrılıq dünyanın əzəlindədi.

Ayrılıq nə demək, bilmir çoxusu,
Kim bilsə, gözünün qaçar yuxusu.
O yaşıl ağacın ölüm qorxusu
Bəlkə də payızın xəzəlindədi.

Hər tərəf xəzəldi, kömək elə sən,
O yolun, yolağın tapa bilim mən.
Şimaldan, cənubdan, şərqdən ya qərbdən
Almaq istədiyin həzz, əlindədi.

Şimalda bağçanı, cənubda bağnı...
Möhtəsim Billahın çartladı bağrı.
Min ildi Babəkin qolları bağlı,
Min ildi Afşinin Bəzz, əlindədi.

Afşin ağıllıdı, Babək dəlidi...
İki Türk üz-üzə... nə gülməlidi?!
Dağ, yerin havaya qalxan əlidi,
Gözümüz göylərin gözəlindədi.

Dağ buludu çəkir, dərə sel əmir,
Torpaq nəfəs dərir, torpaq yel əmir...
Allah bəndəsini bədbəxt eləmir
Xoşbəxtlik hər kəsin öz əlindədi!..

## SEVƏN MÜQƏDDƏSDİ

İnsan ölənəcən imtahan verir,
Ömür ayrılıqdan, gün ayrılıqdan.
İlahi sevgiyə qovuşmaq üçün
Adlayıb keçirik min ayrılıqdan.

Nələrə şahiddi o cığır, bu iz,
Sevən müqəddəsdi, sevilən əziz.
Vüsalın dadını dadmamışıq biz,
Niyə danışırsan sən ayrılıqdan?!

Sevinc istəyəni dərdə salıb ki...
Kədər vermədiyi kimsə qalıb ki?!
Gözümün odunu elə alıb ki,
Danışma, qorxuram mən, ayrılıqdan.

## O QIZDAN AYRILANDA

Gedib, bu dağlara bir də gələcəm,
Çisən, salamat qal, çən, salamat qal!
Ay dağlar gözəli, niyə susmusan?
Danış, salamat qal, din, salamat qal!

Qoy yanım kül olum, oda sal məni,
Ayrılıq dənizmiş, ada san məni...
Bax Alagöllərə, yada sal məni,
Palıdın başına dön, salamat qal!

Nələrə şahiddi o Palıd, bu Dam,
Fırlanan o Nalça, keçinən bu Şam?
Vaxtdı, getməliyəm, əmir quluyam,
Mənə kin bəsləmə, kin, salamat qal!

...Gecdi, getməliyəm, bilmirsən axı,
O yanda hədə var, bu yanda qorxu...
...Bahar bayramında gördüyün yuxu,
İnşallah, çin olar, çin, salamat qal!

Ayları ötürüb, günləri sayıb,
Sevgimi çadırdan çadıra yayıb,
Vüsala yetməyə bir şey qalmayıb,
Uzaqda deyil o gün, salamat qal!

Ümidnən hicrana tab edən kəsin,
Eşqi xəlq eləyən eşidər səsin.
Sevinc üz-gözündən perik düşməsin,
Bir dərdin olmasın min, salamat qal!

Baş qoyub dizinin üstə, yatardım,
Dərdi unudardım, qəmi atardım.
...Bir əsgər borcunu verib qurtardım,
Mən çıxıb gedirəm, sən, salamat qal!

Bura gəlməmişdim qəlbinə dəyəm,
Gəlmişdim, mən sənə “gedirəm” deyəm.
Ağlama, elçimi göndərəcəyəm,
Gülümsə, gül, şən ol, şən, salamat qal!

## İLK GÖRÜŞÜN DADI

Çiçəkli yaylağı güllər balıncın,
İlıq nəfəsimlə uyudum səni.
Yat, otlar yorğanın, çəmən çarpayın,
Şeir deyə-deyə oyadım səni.

Çəməndə xəyalım, çiçəkdə gözüm,
Vüsala səbr yox, hicrana dözüm.
İlk görüş-yadımdan çıxmaz ilk sözüm,
“Yar ol mənə” dedim, yarıdım səni.

Neçə yol görüşdük bənddə, bərədə,
Hələ də bir ümid vardı hələ də.
Zəyəm sahilində, Çətindərədə,
Bəlkə də yüz dəfə sınadım səni.

Son görüş-ağlama, mətin ol, mətin,
Min dərdi, qəmi var bir məhəbbətin.
Sevmək asan imiş, ayrılmaq çətin,
Xatirələr qoymaz unudum səni.

Ömür xatirədi hər addımbaşı,
Öləncə saxlaram verdiyin daşı.
Çiynimi isladır gözünün yaşı,
Bilmirəm, nə deyim, ovudum səni.

Nə deyim duyğudan, nə deyim hissdən,
Səhəngi saxsıdan, məcməyi misdən,
Aranda yaxşıdan, yaylağda pisdən,
Allah bilir, necə qorudum səni.

Getməz damağımdan ilk görüş dadı,
Demə həsrət imiş sevginin adı.
Qovuşub tanımaq qismət olmadı,
Bu gün ayrılanda tanıdım səni.

Sevmək asan imiş, ayrılmaq çətin,
Xatirələr qoymur unudum səni...

## KAŞ

Xeyir düşündüyüm, xeyir bildiyim
Heç xəyal etməzdim şər-qərar imiş.
Hər dəfə çəkinib nədənsə mənə
Açı bilmədiyin sirr, qərar imiş.

Gecdi, “olan olub, keçən keçib”, yar,
İndi “kaş” deməyin nə mənası var?!
Xoşbəxt olmaq üçün verdiyin qərar
Səni bədbəxt edən bir qərar imiş.

Nələrə şahiddi o döngə, bu tin,
Dalan boyda qəzəb, küçə boyda kin,
Gərək bədbəxt olub sonra biləydin
Xoşbəxtlik eşq üstə bərqərar imiş?!

## GÖZLƏRİMİN YADDAŞINDA YAŞAYAN

Gözlərimin yaddaşında yaşayan
Gözlərimdən itməyin də var imiş.
Saçlarında əl izimi daşıyan
Yollarımda bitməyin də var imiş.

O istilik, bu soyuqluq nədi, nə?
Tuş gəlmişik ayrılığın bədinə.
Üz döndərib, dönük çıxıb vədinə,
Yar, xəyanət etməyin də var imiş.

Eşq yolunun döngəsində, tinində,
Yoxa çıxdı o səsin də, ünün də,
Nə biləydim günlərin bir günündə
Gəldiyintək getməyin də var imiş...

## NƏSƏ YADA DÜŞDÜ...

O görüş yadımdan çıxmaz ölüncə,
Palıdın başında quş qımıldadı.
Mən bir az çəkindim, sən bir az qorxdun
Nəsə yada düşdü... huş qımıldadı.

Nə yaman ağırmış yaddaşnan dava
Fikir beynimizidə qaynayan lava...
Bir anın içində dəyişdi hava
Mən elə bildim ki qış qımıldadı

Payızın zilində, qışın bəmində,
Yazın fürsətində, yayın çəmində...
Qəfildən gecənin bir aləmin də
Dolu elə düşdü boş... qımıldadı.

O dolu əridi, su oldu, axdı,
Göy yerə verdiyin başına qaxdı...
Allah sevənlərin üzünə baxdı
O gecə təbiət xoş qımıldadı.

Tanrım çox görmə... Bozqurda bu yurdu
Bu yurdda... babalar comalar qurdu...
İldırım bizi yox, Qayanı vurdu
Qaya parçalandı - daş qımıldadı.

Nədir ildırımda o qəzəb, o kin?!
Vurduğu bir-birdi, yıxdığı min-min...
Başın düşündüyün, dilin dediyin
Kiprik təsdiq etdi, qaş qımıldadı.

Ağlında yox olan dilində “hə”sə
Qulaq as qəlbindən gələn o səsə...
Kövrəldin gözlərin yaşardı nəsə
Ağladın üzündə yaş qımıldadı...